*AMEA Filologiya və sənətşünaslıq, 2026, № 1* *ISSN 2663-4368*
*Səhifə: 31-35* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2026.1.31*

## Bəxtiyar Vahabzadənin poemalarında tarixi hadisələrin əksi

**Bahar Məmmədova Bərdəli**
Filologiya elmləri doktoru, dosent
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: baharmemmedova288@gmail.com
ORCID iD: https://orcid.org/0009-0008-3893-5756

***Xülasə.*** XX əsrin 40-cı illərində ədəbiyyata gələn görkəmli Xalq şairi Bəxtiyar Vahabzadənin zəngin poetik yaradıcılığı var. Onun poemalarında başlıca mövzu Vətən, onun istiqlalı, azadlığı, müstəqilliyi, birliyi üçün aparılan tarixi mübarizə və tarixi qəhrəmanlıqlardır. Eyni zamanda, şairin poemalarında böyük türk dünyası, türk birliyi, türk xalqlarının dostluğu, qardaşlığı poetik təsvir, tərənnüm olunur.

Məqalədə şairin məhz tarixi hadisələrə, tarixi faktlara söykənən poemaları araşdırılmış, tədqiqata cəlb edilmişdir. Deməк, tədqiqat obyektimiz şairin "Gülüstan", "İstiqlal", "Şəhidlər", "Mərziyyə" poemalarıdır. Bu poemaların hər biri bir tarixi dönəmə həsr olunmuşdur. XIX əsrin əvvəllərində Azərbaycanın tarixi torpaqlarının iki yerə bölünməsi, hərəsinin ayrı-ayrı ölkələrin tərkibinə qatılması, XX əsrin sonlarında Şimali Azərbaycanın Müstəqil olması, Türk birliyinin köməyi və s. bu əsərlərin başlıca mövzusu, qayəsidir. "Gülüstan" və "İstiqlai" poemaları bu tarixi faktların əsasında yazılıb. "Şəhidlər" poeması 1990-cı il 20 yanvar Bakı faciəsindən, rus ordusu tərəfindən Bakının gülləbaran edilməsindən, günahsız insanların şəhid olmasından bəhs edir. Əsər çox yüksək şeiriyyətlə yazılıb.

"Mərziyyə" poeması Cənublu gənc şair Mərziyyə Uskülünün siyasi fəaliyyətindən, müəllimliyindən, şeirlərindən söz açır. Güney Azərbaycanın bir tarixi dönəminə nəzər salınır. Xalqını, Vətənini sevən gənc müəllimə baş verən haqsızlığa, ədalətsizliyə, ayrı-seçkiliyə qarşı çıxır. Ana dilində məktəblərin, dərsliyin olmamasını ifşa edir. Savadsızlığın, cəhalətin hökm sürdüyü bu cəmiyyətə qarşı mübarizəyə başlayır. Lakin dövlət adamları onu təqib edərək ölümünə səbəb olur. Bir şair ömrü yarımçıq qalır. Bəxtiyar Vahabzadə öz poemasında bu mübariz qızın portiretini səmimi duyğularla təsvir edir.

Deməк, Bəxtiyar Vahabzadənin poemaları, xüsusilə "Gülüstan" poeması yeni baxış bucağından təhlilə cəlb edilmiş, müstəqillik dövründə şairin ideyaları aydın şəkildə işıqlandırılmış, araşdırılmış və tədqiq edilmişdir. Məqalədə şairin yaradıcılığına həsr olunmuş elmi əsərlərdən də istifadə olunmuş, statlar gətirilmişdir.

***Açar sözlər:*** *Bəxtiyar Vahabzadə, vətən, Azərbaycan, poema, şəhidlər, tarix*

**Məqalə tarixçəsi:** göndərilib – 22.04.2026; qəbul edilib – 18.05.2026

## Reflection of historical events in the poems of Bakhtiyar Vahabzade

**Bahar Mammadova Bardeli**

***Abstract.*** The outstanding folk poet Bakhtiyar Vahabzade, who emerged in literature in the 1940s, possesses a rich poetic output. Dozens of poems devoted to various themes occupy a central place in his poetry. The main theme of these poems is the Motherland, its independence, freedom, unity, and historical heroism. At the same time, the poet's poems poetically describe and glorify the great Turkic world, Turkish unity, and the friendship and brotherhood of the Turkic peoples.

This article analyzes the poet's poems that depict historical events and facts. Thus, the objects of our study are the poems "Gulustan," "Independence," "Shehidler," and "Marziya." Each of these works is dedicated to a historical period. The division of the historical lands of Azerbaijan into two parts at the beginning of the 19th century, each of which was part of separate states, the independence of Northern Azerbaijan at the end of the 20th century, the assistance of the Turkish Union, and so on are the main themes of these works. The

poems "Gulustan" and "Independence" are based on these historical facts. The poem "Shehidler" tells of the Baku tragedy of January 20, 1990, the shelling of Baku by the Russian army and the martyrdom of innocent people. The work is written with great poetic skill.
The poem "Marziya" describes the political activity, teaching, and poetry of the young poetess Marziya Uskul from the South. The historical period of Southern Azerbaijan is examined. A young teacher, loving her people and homeland, confronts the injustice, unfairness, and discrimination she faces. She faces a shortage of schools and textbooks in her native language. She begins a struggle against a society where illiteracy and ignorance reign. However, government officials persecute her and lead her to death. The poet's life is cut short. Bakhtiyar Vahabzade, with sincere emotion, paints a portrait of this struggling girl in her poem.
Thus, Bakhtiyar Vahabzade's poems, especially "Gulustan," are analyzed from a new perspective, and the poet's ideas during the period of independence are illuminated, explored, and studied.
The article also draws on scholarly works devoted to the poet's work and presents statistical data.
***Keywords:*** *Bakhtiyar Vahabzade, homeland, Azerbaijan, poems, martyrs, history*

**Article history:** received – 22.04.2026; accepted − 18.05.2026

## Giriş / *Introduction*

Xalq şairi, "Şöhrət", "Şərəf", "İstiqlal" ordenli Bəxtiyar Vahabzadə (1925-2009) XX əsrin 40-cı illərində ədəbiyyata gəlmişdir. İlk şeirlərindən diqqəti çəkən şair sonralar ən çox fəlsəfi ruhlu, həyat həqiqətlərini, əsl gerçəkliyi, tarixi hadisələri əks etdirən bir sənətkar kimi tanınmışdır. Şairin ictimai-siyasi-fəlsəfi lirikası onun poeziyasının əsasını təşkil edir və ümumən çağdaş Azərbaycan ədəbiyyatının formalaşmasında, zənginləşməsində mühüm rol oynayıb. Eyni zamanda, şair türk dünyasının tarixini, xalqlarının qəhrəmanlığını, birliyini tərənnüm edən əsərləri ilə də tanınmışdır.

Bəxtiyar Vahabzadənin yaradıcılığı zaman etibarı ilə iki dövrə bölünür:

1. Sovet dövrü: 1940-1988-ci illər;
2. Müstəqillik uğrunda mübarizə və müstəqillik dövrü: 1988-2009-cu illər.

Hər iki dövrdə şairin yaradıcılığında onun vətənpərvər, insansevər vətəndaş mövqeyi, ictimai-siyasi-fəlsəfi düşüncələri öncül yer tutur. Lakin Müstəqillik illərində şairin ictimai-siyasi-tarixi hadisələrə münasibəti daha dolğun, ötkəm bir duruş sərgiləyir. Burda yalnız poemalardan söhbət getdiyindən, biz şairin hər iki dövrdə qələmə aldığı poemaları təhlilə cəlb etmişik.

## Əsas hissə / *Main part*

Bəxtiyar Vahabzadənin poetik yaradıcılığı çox zəngindir, mövzu dairəsi genişdir, ideyaları yüksəkdir. Şair poemalarında müxtəlif mövzulara toxunub. Bu mövzular poemaların adından da görünür: "Atılmışlar", "Qiymət", "Təzadlar", "Leninlə söhbət", "Muğam", "Şəhidlər" və s. Akademik Bəkir Nəbiyev yazır: *"B.Vahabzadənin yaradıcılığı onun şəxsi həyacanlarının, duyğu və düşüncələrinin, dünyanı şairanə qavrayışının ifadəsindən ibarətdir. Xarici aləmə, ictimai gerçəkliyə, Vətənə, Xalqa, gözəlliyə, tarixi keçmişə, beynəlxalq hadisələrə, təbiətə münasibəti onun lirikasının əsasını təşkil edir. Lakin yalnız sırf fərdi təsir bağışlayan bu münasibət əsərlərində elə yüksək səviyyədə ümumiləşdirilir ki, dərin ictimai-siyasi məna kəsb edir..."* [Nəbiyev: 16 avqust 1985-ci il, s.3].

Şairin ilk tarixi əsərlərindən biri **"Gülüstan"** poemasıdır. 1959-cu ildə qələmə alınıb. Müxtəlif tarixi dönəmlərdə Azərbaycanın bütövlüyü, Müstəqilliyi üçün mübarizə aparan cənublu inqilabçılar Səttar xan, Ş. M. Xiyabani və Seyid Cəfər Pişəvərinin xatirəsinə həsr olunub. Poemanın mövzusu məşhur tarixi hadisəni əks etdirir. XIX əsrdə Çar Rusiyası Qafqazı, Zaqafqaziyanı işğal etmək və orada möhkəmlənmək üçün İranla müharibəyə başlamışdı. Döyüşlərdə məğlub olan İran tərəfi Rusiyanın tələblərini yerinə yetirməli olmuşdu. Yəni, 1813-cü il oktyabrın 12-də Azərbaycanın Gülüstan kəndində Rusiya-İran arasında sülh müqaviləsi bağlan-

mışdı. Müqaviləyə görə Azərbaycan Araz çayı sərhəd olmaqla iki yerə bölünürdü və Şimal hissə Rusiyanın, Cənub hissə İranın tərkibinə qatılırdı. Bu tarixi hadisədə Azərbaycanın səsini, sözünü eşidən olmadı. İki əsrdən çoxdur ki, Azərbaycan xalqı və onun torpaqları bu müqavilənin təsiri altında iki yerə parçalanmış vəziyyətdədir. Şairi hiddətləndirən çar cinovniki ilə İran Ağasının Azərbaycan xalqının tarixi talehini düşünməməsidir:

*İpək yaylığıyla o asta-asta*
*Silib eynəyini gözünə taxdı...*
*...Əyləşib kənarda topsaqqal Ağa...*
*Çevrilib gah sola, baxır gah sağa...*
*Başını yellədib təsbeh çevirir...*
[Vahabzadə: 2025, **s.** 302]

İran ağalarının sakitliyi, bir xalqı saymazlığı, onların ikiyə bölünməsinə rəvac vermələri, bu tarixi faciəni əbədiləşdirmələri şairi qılınc kimi kəsir:

*Qoyulan şərtlərə razıyıq deyə,*
*Tərəflər qol çəkdi müahidəyə...*
*Tərəflər kim idi?*
*Hər ikisi yad!*
*Yadlarmı edəcək bu xalqa imdad?!*
[Vahabzadə:2025, s. 302]

Yaxın qonşular olan farslar və ruslar Azərbaycanın tarixi faciəsinə elə qol çəkirdilər ki, sanki sevgi məktublarını imzalayırdılar. Şair bu xalqın tarixi qəhrəmanlarının ruhunu səsləyir:

*Hanı bu ellərin mərd oğulları,*
*Açın bərələri, açın yolları!*
*Bəs hanı bu əsrin öz Koroğlusu,*
*Qılınc Koroğlusu, söz Koroğlusu?!*
[Vahabzadə: 2025, s. 303]

Şair üsyan edir:

*Bir deyən olmadı durun ağalar,*
*Axı bu ölkənin öz sahibi var!*
*...Necə ayırdınız dırnağı ətdən,*
*Ürəyi bədəndən, canı cəsəddən?!*
*Axı kim vermişdir bu haqqı sizə?!*
[Vahabzadə: 2025, s. 303]

Şair düşünür: "Dəmir çəpərləri eşqim, diləyim, //Tarixim, ənənəm üstə qoydular,// Yarıya bölündü canım, ürəyim.// Yarıya bölündü Arazda sular..." Dəmir çəpərlər torpağa elə möhkəm işlədi ki, iki əsrdi bu ulu, böyük xalq nə qədər döyüşsə də, vuruşsa da öz tarixi bütövlüyünə, azadlığına qovuşa bilmədi. Xalqın yeraltı, yerüstü sərvətlərini çəkib aparan Ağalar da buna imkan vermədi. Lakin bir tarixi həqiqət də var. Bu torpaqları ikiyə də, dördə də bölmək olar. Amma Xalqı, onun dilini, ruhunu, ədəbiyyatını, tarixi birliyini bölmək mümkün deyil. Onun bir dili, bir ürəyi var. Əlifbası dəyişsə belə, hər kəs öz ana dilində danışır, Şəhriyar da, Vahid də, S.Vurğun da bu dildə əsərlər yazıb, bir Vətəni tərənnüm ediblər. Demək, dil yalnız ünsiyyət vasitəsi deyil, həm də bir xalqın varlığının təsdiqidir. Əgər bu dil ikiyə bölünmüş bir vətənin hər iki tayında yaşayırsa onda Vətən bütöv yaşayır, ona tikanlı çəpərlər maneə ola bilməz!

**"İSTİQLAL".** Şair qırx il sonra, 1999-cu ildə "Gülüstan" poemasının davamı olan "İstiqlal" əsərini yazır. Bu poema XX əsrin 90-cı illərində baş verən tarixi hadisələrin əks-sədasıdır. "Gülüstan"ın davamı niyə məhz 90-cı illərdə yazıldı? Çünki tarix Azərbaycan xalqının xeyrinə işləyirdi. Onun müstəqilliyi, azadlığı özünə qayıdırdı, bərpa olunurdu. Böyük Sovetlər Birliyi çökürdü və onun tərkibində olan xalqlar Azadlıq, Müstəqillik üçün ayağa qalxmışdılar. Şair o günləri belə təsvir edir:

*Quzeydə ayağa qalxdı məmləkət,*
*Bir təpə bir dağla üz-üzə gəldi.*
*Millətin qəlbində boy atan nifrət,*
*Köksün həmləsiylə o dağı dəldi.*
[Vahabzadə: 2025, **s.** 314].

Poemanın əvvəlində şair Azərbaycanın vahid, bütöv tarixi dönəmlərini yada salır. Sonra bu döngələrin birində vətən parçalanır. İki əsr hər parça bir ölkənin tərkibində yaşayır. Amma indi bu ölkənin Şimalı azaddır. Şəhidlər, qurbanlar versə də müstəqildir. Şair düşünür ki, bu ölkənin Cənubu da bir gün azad olacaq:

*Salaq yadımıza bu gün Cahanın,*
*Rəngləri dəyişən beş qitəsini.*
*Bir də görəcəyik Azərbaycanın,*
*Güneyli, Quzeyli Xəritəsini!*
[Vahabzadə:2025, s. 323].

1989-cu ilin dekabırında Şimalı Azərbaycan əhalisi Araz boyu tikanlı məftilləri sökərək özlərini çayın sularına qərq etmişdilər. Sahildə böyük çanlanma, görüşlər başlanmışdı... Lakin tezliklə bu yollar yenə bağlandı. Avropada qırx illik ayrılıqdan sonra iki yerə parçalanmış Almaniya isə birləşdi.

*"Bəxtiyar Vahabzadə həmişə məntiqli, ağıllı, tutumlu poetik misralar işlədib. Dinin, Allahın hüdudsuz qüdrətini ifadə edib... bədii vasitələrlə nihilizmin, şovinizmin zəminini də göstərib"* [Əsgərli: 2022, s.398] .

**"Şəhidlər"** poemasında Bəxtiyar Vahabzadə 1990-cı ilin yanvarın 20-də Rus qoşunları ilə Azərbaycan xalqının Bakının girəcəyində qanlı toqquşmasından və xalqın qəhrəmanlığından, vətənpərvərliyindən, şəhidlərin ölümsüzlüyündən, qanla suvarılmış torpaqdan bəhs edir. Bu torpaq Vətənin döyünən ürəyi, paytaxtı, ölkənin mərkəzi şəhəri olan Bakının torpağıdır. Şair o günləri belə dilə gətirir:

*Eşidib qəlbimin üsyan səsini,*
*Yazdım "Şəhidlər"in faciəsini:*
*"Dilək bir çiçək də bitirə bilməz,*
*Bu gündən sabaha körpü olmasa.*
*Azadlıq ağacı bar verə bilməz,*
*Şəhidlər qanıyla suvarılmasa..."*
[Vahabzadə: 2025, s. 314].

Poema 1990-cı ilin mart-iyun aylarında qələmə alınıb. Əsər Giriş, "Nə istəyir bu millət", "Təzadlar içində", "Eşq olsun sizə", "Matəm mərasimi", "Axı biz neyləmişdik", "Mənim günahlarım", "Xəcalət", "İham-Fərizə", "Larisa", "Sürəyya Lətif qızı", "Baba müəllim", "Aleksandr Marxevka", "Hidayət", "Ağabəy", "Şəhidlər" və "Son" hissələrdən ibarətdir. Filologiya elmləri doktoru Əlizadə Əsgərli əsər haqqında belə yazır: *"B. Vahabzadə şərəfli olan şəhidlik mövzusuna yeni təravət verib. Ədəbiyyatımıza yeni ruh, yeni məzmun, yeni məfkurə gətirib"* [Əlizadə:2022, s.407]. Bu epik əsər haqqın, ədalətin, xeyirin, azadlığın şər qüvvələr üzərində döyüşü və qələbəsidir.

*Şəhidlər bu torpağa, xalqa səcdə qıldılar,*
*Haqsızlığın üstündən haqqa körpü saldılar...*
[htts:/www.cib/az-"Şəhidlər poeması.s.1]

Almaniyada yaşayan türk əsilli alim Orxan Aras yazır: "*20 yanvar 1990-cı ilində Azərbaycan, guya "qardaş millət"olan rus ordusu tərəfindən şiddətli bir hücuma məruz qaldı. Yüzlərcə insan tankların altında əzildi. Azərbaycana könül bağı ilə bağlı olan bizim kimi insanlar çarəsizlikdən nə edəcəklərini bilmədilər. Acı böyük idi. Gözlərimiz yenə Azərbaycanın bu böyük oğlunu arayırdı. Çox keçmədən onun igid və gur səsi qulaqlarımıza çatdı:*

*Qatil gülləsinə qurban gedirkən,*
*Gözünü sabaha dikdi şəhidlər!*
*Üç rəngli bayrağı öz qanlarıyla*
*Vətən torpağına çəkdi Şəhidlər!"*
[Aras: 2015, s. 9].

O dönəmdə Bakıda Bəxtiyar Vahabzadə ilə görüşən alim bu görüşdən aldığı təssüratlarından bəhs edir və daha sonra yazır: *"Bəxtiyar Vahabzadə çoxyönlü bir şairdir. Onun şeirlərində klassik bir hava olsa da şeirə yeni bir səs, yeni bir nəfəs də gətirmişdir. Dilimizin bütün rənglərini, məqamlarını onun şeirlərində görmək mümkündür. Bu şeirlərdə sevgi, iman, Vətən, millət, tarix bir-biri ilə qaynayıb qarışmışdır"* [Aras: 2015, s. 9].

Bakı Dövlət Universitetinin professoru İfrat Əliyeva Bəxtiyar Vahabzadənin yaradıcılığından bəhs edərkən yazır: *"Bəxtiyar Vahabzadənin poeziyasında şəxsiyyət azadlığının insan və zaman konteksində aşkarlanması şairin problemə daha geniş müstəvidə yanaşdığını göstərməkdədir. Bu isə o deməkdir ki, o, bir sənətkar kimi o millətin azad, hürr yaşaması, dünya xalqları içərisində söz sahibi olması, milli özünüdərk məqamına yetişməsi, ən başlıcası isə vətəndaş kimi formalaşması üçün bir çox şərtlərin vacib olduğuna diqqəti çəkir"* [Əliyeva: 2015, s.4 ].

"Şəhidlər" poeması təkcə B. Vahabzadə yaradıcılığında deyil, ümumən ədəbiyyatımızda Azərbaycanın Müstəqillik uğrunda apardığı mübarizənin ən real, bariz əks-sədasıdır. Akademik İsa Həbibbəyli yazır: *"İstiqlal şairi istiqlala qovuşmuş ölkənin milli istiqlal ədəbiyyatının dəyərli nümunələrini yaratmışdır. "Şəhidlər" poeması Azərbaycan milli istiqlal ədəbiyyatının kamil, bariz nümunəsidir"* [Bəxtiyaram mən: 2016, s. 84].

*"Əgər bu gün hər birimiz Bəxtiyar Vahabzadənin Vətənə, torpağa, millətə qarşı duyduğu sevginin, məhəbbətin kiçik damlasını qəlbimizdə yaşatsaydıq inanıram ki, bir çox bəla və əngəllərdən uzaq olardıq"* [Türk dünyasının Bəxtiyarı: 2002, **s.** 22].

**"Mərziyyə"** poeması şairin Güney Azərbaycanın tarixi həyatından bəhs edən bir epik əsərdir. Mərziyyə Üskülü və ya Mərziyyə Əhmədi (1941-1974) Güney Azərbaycanın Üskülü şəhərində doğulub, orada böyümüşdür. Təbriz Pedoqoji Texnikomunu, sonra Təbriz Universitetini bitirmişdi. Üskükdə müəllim işləyirdi və bədii yaradıcılıqla məşğul olurdu. Həmçinin İran şah rejiminə qarşı mübarizə aparan İran Xalq Fədailəri təşkilatının fəal üzvülərindən biri idi. O, ədalətsizliyə, despotizmə, fanatizmə, ümumiyyətlə, rejimə qarşı öz çıxışlarında və şeirlərində daima etiraz edirdi. Buna görə də o, şahlıq rejimi tərəfindən izlənilirdi və bu təqiblərin birində həbs olundu, daha sonra isə İranın SAVAK atışmasında öldürüldü.

Gənc, vətənpərvər, millətini, xalqını, vətənini sevən otuz üç yaşlı bir müəllimin, şairin öldürülməsi Bəxtiyar Vahabzadəyə olduqca pis təsir etmişdi. O, 1984-cü ildə "Mərziyyə" poemasını qələmə aldı: "Kimi gəlir bu dünyanın nəşəsini yaşamağa,// Kimi gəlir bu dünyanın dərdlərini daşımağa..." Əsər Mərziyyəyə xitabən onun arzularını, xəyallarını, həyatını əks etdirməklə yazılıb. Çox da böyük olmayan bu poema Bəxtiyar Vahabzadənin Cənubi Azərbaycan xalqına-soydaşlarımıza olan böyük rəğbətini, səmimi duyğularını, rejimə qarşı etirazını, üsyanını ifadə edir.

## Nəticə / *Conclusion*

Beləliklə, Bəxtiyar Vahabzadə "Gülüstan", "İstiqlal", "Şəhidlər" və s. poemaları ilə xalqın milli təfəkkürünün formalaşmasında, onun azadlıq uğrunda mübarizəsində mühüm rol oynamış, daima xalqının yanında olmuş, onu milli dirçəlişə səsləmiş və keçmiş tarixi qəhrəmanlıqları bu günə daşıyaraq tərənnüm etmişdir. Hələ sovet dönəmində xarici ölkə xalqlarının tarixi talelərini ədəbiyyata gətirərək təsvir etmiş və sətiraltı ifadələrlə öz vətəni, xalqı haqqında düşüncələrini də ifadə edə bilmişdir. Şairin "Təzadlar" poeması bu mənada çox qiymətlidir.

Həmçinin, yaradıcılığının ikinci mərhələsində, Müstəqillik qazanıldıqdan sonra şair bir tərəfdən istiqlalı, Azadlığı tərənnüm etmiş, digər tərəfdən isə bu qurbanlar, şəhidlər bahasına alınan Azadlığı qoruya bilməyənlərin obrazını da yaratmışdır. Bu tip əsərlərlə xalqın gözünü açmağa, onları ayıq olmağa səsləmiş və milli istiqlalı möhkəmləndirməyə yönələn neçə-neçə poetik nümunələr yaratmışdır.

## Ədəbiyyat / *References*


1. Aras O.H. "Azərbaycanın Dədə Qorqudu Bəxtiyar Vahabzadə" / *Bəxtiyar Vahabzadənin anadan olmasının 90 illiyinə həsr olunmuş "Bəxtiyar Vahabzadə və Azərbaycan filologiyasının aktual problemləri" mövzusunda Beynəlxalq elmi konfransın materialları*. Bakı: Bakı Universiteti nəşriyyatı, 28 oktyabr 2015-ci il, 465 s.
2. *Bəxtiyaram mən*. (2016). Bakı: Çaşıoğlu nəşriyyatı, 288 s.
3. Əliyev İ.S. "Dil millətin varlığıdır" / *Bəxtiyar Vahabzadənin anadan olmasının 90 illiyinə həsr olunmuş "Bəxtiyar Vahabzadə və Azərbaycan filologiyasının aktual problemləri" mövzusunda Beynəlxalq elmi konfransın materialları*. Bakı: Bakı Universiteti nəşriyyatı, 28 oktyabr 2015-ci il, 465 s.
4. Əsgərli Ə.B. (2022). *Bəxtiyar Vahabzadə: Həyatı, mühiti və yaradıcılığı*. Bakı: Elm və təhsil nəşriyyatı, 556 s.
5. "Şəhidlər" poeması. https://www.cib.az
6. Nəbiyev B.Ə. "Zirvəyə gedən yolda" / *Kommunist* qəzeti, 16 avqust 1985-ci il, s. 3.
7. *Türk dünyasının Bəxtiyarı*. (2002). Bakı: Təfəkkür nəşriyyatı, 268 s.
8. Vahabzadə B.Z. (2025). *Seçilmiş əsərləri*. Bakı: TEAS Press nəşriyyatı, 484 s.